2019-cu il dekabrın 23-nə keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Validə Kazımovanın Mərkəzi Seçki Komissiyasına daxil olmuş 10 yanvar 2020-ci il tarixli 77 saylı müraciəti üzrə

**RƏYİ**

Bakı şəhəri 10 yanvar 2020-ci il

2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 80 saylı İmişli-Beyləqan seçki dairəsindən Qaralılar bələdiyyəsi üzrə qeydə alınmış namizəd Ağayev Akif Kamil oğlu və digərləri 10 yanvar 2020-ci ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) ərizə ilə müraciət edərək həmin seçki dairəsi üzrə 36 saylı seçki məntəqəsində qanun pozuntularına yol verildiyini iddia etmiş və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişlər.

Mən, ekspert qrupunun üzvü Validə Kazımova həmin müraciəti nəzərdən keçirərkən onun müddət ötürülməklə verildiyini müəyyən etdim.

Azərbaycan Respubliası Seçki Məcəlləsinin 112.1-ci maddəsinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1.1-ci və 4.1.2-ci bəndlərinə əsasən, seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət verilə bilər.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1.1-ci, 1.2-ci, 4.1.2-ci, 7.1-ci və 7.10.2-ci bəndlərinə əsasən **r ə y ə g ə l d i m :**

1. 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 80 saylı İmişli-Beyləqan seçki dairəsindən Qaralılar bələdiyyəsi üzrə qeydə alınmış namizəd Ağayev Akif Kamil oğlu və digərlərinin Mərkəzi Seçki Komissiyasına daxil olmuş 10 yanvar 2020-ci il tarixli 77 saylı müraciəti qanunvericiliklə müəyyən olunmuş şikayətvermə müddəti ötürülməklə verildiyindən şikayət etmiş şəxslərə geri göndərilsin.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü Validə Kazımova